# Azərbaycan Respublikası
## İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

## Türk Dünyası Araşdırmalar Mərkəzi haqqında

# ƏSASNAMƏ

**Bakı – 2024**

## İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmalar Mərkəzi haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Bu Əsasnamə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi publik hüquqi şəxsin (bundan sonra - Mərkəz) strukur bölməsi olan Türk Dünyası Araşdırmalar Mərkəzinin (bundan sonra – TDAM) vəzifələrini, hüquqlarını və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

2. TDAM türk dünyasına iqtisadi inteqrasiya istiqamətində elmi araşdırmaların aparılması, analitik məlumatların hazırlanması, beyin mərkəzlərilə münasibətlərin şaxələnməsi ilə bağlı Mərkəzin səlahiyyətləri çərçivəsindəki fəaliyyətini təmin edən struktur bölmədir.

3. TDAM öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Mərkəzin Nizamnaməsini, Mərkəzin Müşahidə Şurasının qərarlarını, daxili əmrlər, qaydalar, təlimatlar və digər müvafiq normativ hüquqi aktları və bu Əsasnaməni rəhbər tutur.

4. TDAM öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Mərkəzin digər şöbələri və sektorları, habelə tabeliyində olan portallar və qurumlarla (bundan sonra – Mərkəzin struktur bölmələri) qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

### II. TDAM-ın fəaliyyət istiqamətləri

5. TDAM-ın fəaliyyət istiqamətləri aşağıdakılardır:

5.1. Türk dünyasına iqtisadi inteqrasiya prosesinin sürətləndirilməsində, bu prosesdə elmi və analitik dəstəyin verilməsində iştirak etmək;

5.2. Türk dövlətləri arasındakı münasibətlərin şaxələnməsi ilə bağlı Mərkəzin səlahiyyətləri çərçivəsindəki fəaliyyətini təmin etmək;

5.3. Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər üzrə fəaliyyət göstərmək.

## III. TDAM-ın vəzifələri

6. TDAM-ın bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

6.1. İqtisadi siyasət üzrə tədqiqat mərkəzləri və akademik dairələr arasında əməkdaşlıq aparmaq;

6.2. Türk dünyasında beyin mərkəzlərinin fəaliyyətində aktiv iştirak etmək, birgə tədbir və layihələrin təşkilində əməkdaşlığı genişləndirmək;

6.3. Müvafiq layihələrlə bağlı olaraq Azərbaycan Respublikasının iqtisadi siyasəti çərçivəsində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaq;

6.4. Türk Dövlətləri Təşkilatının (bundan sonra - TDT) üzv və müşahidəçi ölkələri səviyyəsində dayanıqlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində elmi-analitik yanaşmalar ortaya qoymaq, bununla bağlı təklif, proqnoz və tövsiyələr hazırlamaq;

6.5. Müvafiq sahələrin inkişafı üçün əhəmiyyət kəsb edən layihələrin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.6. TDT-yə üzv və müşahidəçi dövlətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında investisiya imkanları haqqında məlumatlılığı artırmaq;

6.7. Öz missiyası çərçivəsində Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Ağsaqqallar Birliyi və "Türk Dünyasının İqtisadi Siyasət Araşdırma Mərkəzləri Şəbəkəsi" (ERCNET) kimi qurumlarla sıx əməkdaşlığı həyata keçirmək;

6.8. TDT-yə üzv və müşahidəçi ölkələrin ayrı-ayrı rəsmi qurumları və beyin mərkəzləri ilə müvafiq olaraq iki və çoxtərəfli əməkdaşlıq etmək;

6.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. TDAM-ın hüquqları

7. TDAM öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

7.1. Öz səlahiyyətləri daxilində Mərkəzin strukturları, aidiyyəti dövlət orqanları, bələdiyyələr, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərmək;

7.2. Mərkəz rəhbərliyinin göstərişi ilə fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Mərkəzi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və qanuni mənafelərini müdafiə etmək;

7.3. Mərkəz rəhbərliyinin göstərişi ilə Mərkəzdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Mərkəzi təmsil etmək, onların işində iştirak etmək;

7.4. Bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Mərkəzin bütün strukturlarına müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

7.5. Fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik-icmal materiallar hazırlamaq, təkliflər vermək;

7.6. Fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübəni öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

7.7. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş, o cümlədən vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## V. TDAM-ın fəaliyyətinin təşkili

8. TDAM-ın strukturu və əməkdaşlarının sayı Mərkəzin Müşahidə Şurası tərəfindən müəyyən və təsdiq edilir.

9. TDAM-ın Mərkəzin İcraçı direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri səlahiyyətlərini həyata keçirən rəhbəri vardır.

10. TDAM bir başa Mərkəzin İcraçı direktoruna tabedir. Rəhbər şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11. Şöbənin hər bir əməkdaşı ona Azərbaycan Respublikasının qanunvericilyinə müvafiq olaraq məlum olan dövlət sirri, yaxud xidməti sirr təşkil edən məlumatların mühafizə olunmasına görə məsuliyyət daşıyır.

12. Rəhbər:

12.1. TDAM-ın fəaliyyətini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirir;

12.2. TDAM-a həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasına nəzarəti həyata keçirir və icrası barədə rəhbərliyə hesabat verir;

12.3. TDAM-a daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmasını və onların vaxtında və düzgün cavablandırılmasını təmin edir;

12.4. TDAM-da kargüzarlıq işinin "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmasını təmin edir;

12.5. TDAM-ın fəaliyyətində məxfilik rejimini təmin edir və dövlət sirlərinin qorunması tədbirlərinin təmin edilməsinə görə cavabdehlik daşıyır;

12.6. TDAM-ın fəaliyyətini Mərkəzin struktur bölmələri ilə əlaqələndirir;

12.7. TDAM-ı təmsil edir.

13. TDAM-ın rəhbəri ona tapşırılmış işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə və bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.